BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2014*

UOT 94 (479.24)

# ŞİRVAN XVI ƏSRİN 20-30-cu İLLƏRİNDƏ

**BABA BƏHRUZ VİDADİ OĞLU**
***Bakı Dövlət Universiteti***
***Baba.behruz@yahoo.com***

*Bu məqalə Şirvanşahlar dövlətinin XVI əsrin 20-30-cu illər tarixinə həsr olunub. Müəllif bu məqaldə Şirvanşahlar dövlətinin qonşu dövlətlərlə münasibətləri haqqında da məlumat verir. Tarixi ədəbiyyata əsaslanan müəllif burada Şirvanşahlar dövlətinin zəifləməsi və süqutu dövrünün də əsas səbəblərini göstərir. Müəllif mənbələrdə əks olunan məsələlərə xüsusi diqqət yetirib.*

**Açar sözlər:** Səfəvi, dövlət, şah, Şirvan, Şirvanşahlar

Şirvan Azərbaycanda qədim dövlətçilik ənənələrinə malik olan bölgələrdən biridir. 861-ci ildə yaranan Şirvanşahlar dövləti uzun müddət Azərbaycanın dövlətçilik tarixində özünəməxsus rol oynayaraq, 1538-ci ilə qədər mövcud olmuşdur.

XV-XVI əsrin əvvələrində Azərbaycanda baş verən mühüm ictimai-siyasi hadisələr Şirvanşahlar dövlətinin durumuna da təsirsiz ötüşməmişdi.

Şirvanşah I İbrahim Dərbəndi Teymurun yürüşü ərəfəsində də Teymurilərin vassal asılılığını qəbul etmiş və bu proses Teymurun vəfatına qədər davam etmişdir. Teymurun vəfatından sonra isə Şirvanşahlar yenidən öz müstəqilliklərini bərpa etmişdilər.

Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti dövründə isə Şirvanşahlar əsasən müstəqil siyasət yeritmişdilər. Lakin Şirvanşah I İbrahim Dərbəndinin zamanı isə Şirvanşahlar 1412-ci ildə Kür çayı yaxınlığında baş vermiş döyüşdə Qaraqoyunlulara məğlub oldular və müəyyən müddət onlardan asılılığı qəbul etdilər.

Şirvanşahlar dövlətinin Teymurilər və müəyyən müddət Qaraqoyunlulardan asılı olmasına görə Şirvanşah hökmdarları olan I İbrahim və I Xəlilullahın adlarına sikkələr anonim surətdə (Şirvanşahların adları qeyd olunmadan) zərb edilirdi. Bu faktlarda I İbrahim Dərbəndi və I Xəlilullahın hakimiyyətləri zamanı Şirvanşahların tam şəkildə müstəqil olmadıqlarını göstərir.

Şirvanşahlar dövləti I Fərrux Yasərin (1465-1501) dövründə Qaraqoyunluların asılılığından çıxmış və yenidən özünün müstəqilliyini bərpa edə

bilmiş və müəyyən qədər güclənmişdi. 1468-ci ildə Qaraqoyunlu dövləti süqut etdikdən sonra onu əvəz edən Ağqoyunlular dövlətinin vaxtında iki dövlət arasında dinc və dostluq münasibətləri olmuşdur. Ağqoyunlu dövlətinin dövründə Şirvanşahların müstəqilliyinə təminat verilmişdi.

XV əsrin sonlarında Ağqoyunlu dövlətinin daxilində baş vermiş siyasi hərc-mərclik dövləti xeyli zəiflətmişdi. Bu zaman Səfəvilərin güclənməsi isə Şirvanşah Fərrux Yasəri ciddi narahat etmiş və Şirvanşah Fərrux Yasər Şeyx Heydərin övladlarını məhv etmək və Şirvana qarşı ola biləcək təhlükənin qarşısını almaq məqsədi güdmüşdür. Şirvanşah Fərrux Yasərin Səfəvilərə qarşı düşmənçilik siyasəti Qızılbaşlar və Şirvanşahlar arasında müharibə həddinə gətirib çıxartdı və bu hadisələrin nəticəsi olaraq 1500-cü ilin sonunda İsmayılla Şirvanşah Fərrux Yasər arasında Cəbani adlanan yerdə qanlı döyüş baş verdi (1, 45).

Bu döyüş İsmayılın tarixdə məlum olan ən qanlı döyüşlərindən biri idi. Şirvan qoşunu darmadağın edildi, qaçmağa üz tutdu, Fərrux Yasər isə həlak oldu.

Fərrux Yasərin öldürülməsi ilə Şirvanşahlar dövlətinin inkişafına və qüd-rətinə son qoyuldu. Fərrux Yasərin ölümündən sonra Şirvana növbə ilə onun oğulları Məhəmməd Qazi bəy, Bəhram bəy və II Şeyx İbrahim hakimlik etdilər.

Fərrux Yasərin yerinə 1500-cü ildə (hicri 907-ci il) oğlu Bəhram bəy keçdi. Bəhram bəyin hakimiyyəti bir il sürdü və o, 1501-ci ildə (hicri 907-ci il) öz əcəli ilə öldü. Bəhram bəyin hakimiyyəti dövrü haqqında mənbələrdə məlumatlara rast gəlinmir.

Bəhramın ölümündən sonra Şirvanşahlar taxtına 1501-ci ildə onun qardaşı Qazi bəy İbn Fərrux Yasər çıxdı. Qazi bəy Səfəvi şah İsmayılın Bakı şəhərini mühasirəyə alıb tutduğu altı ay müddətində hakimiyyətdə olmuşdur. Bu zaman Şirvanşah Qazi bəyin torpaqları Bakı, Mahmudabad və Salyandan ibarət idi. Bakı bu zaman mühasirədə idi. Bakının müdafiəsinə isə Qazi bəyin olmadığı müddətdə onun adı mənbələrdə çəkilməyən mərd arvadı başçılıq edirdi. Qazi bəyin həyat yoldaşı Bakını qəhrəmancasına müdafiə etməsinə baxmayaraq, Bakı sonda təslim olmuşdur. Bakının təslim olması haqqında bu dövrün salnaməçiləri Xandəmirin, Həsən bəy Rumlunun əsərlərində məlumat verilir. Lakin Həsən bəy Rumlunun məlumatı Xandəmirin məlumatından müəyyən qədər fərqlənir (2, 309).

Bakının təslim olmasından sonra Şirvanşahlar dövləti güclü sarsıntıya məruz qalmasına baxmayaraq, özünün varlığını davam etdirmişdir. Mənbələrdə verilən məlumata görə Qazi bəy altı aya yaxın hakimiyyətdə olmuşdur. Qazi bəyin oğlu Sultan Mahmud atasının əleyhinə qiyam qaldıraraq 1502-ci ildə (hicri 907-ci il) onu xaincəsinə öldürmüşdür.

Məhəmməd Qazi bəy öldürüldükdən sonra Şirvanşahlar taxtını onun qiyamçı oğlu mənbələrdə "yalançı və qaniçən müstəbid" adlandırılan Sultan Mahmud İbn Qazi bəy tutdu. Mənbələrdə verilən məlumata görə, Sultan Mahmudun hakimiyyəti cəmisi bir neçə ay çəkmişdir. Cənnabi məlumat verir

ki, Sultan Mahmud həddindən artıq zalım olduğu üçün xalq ona nifrət edərək onu hakimiyyətdən devirdi, yerinə əmisi Şeyx İbrahim keçdi.

Beləliklə, aydın olduğu kimi Fərrux Yasərin ölümündən sonra Şirvanda baş verən feodal dağınıqlığı və hakimiyyət uğrunda gedən feodal mübarizələri xalq təsərrüfatını pozaraq ölkənin iqtisadiyyatına ağır zərbə endirdi. Feodal müharibələrin xərci zəhmətkeş kütlələrin üzərinə düşürdü. Əhali bu xərcləri ödədiyi kimi tez-tez hakimiyyətə gələn yeni-yeni hökmdarların soyğunçuluq və istismarına məruz qalırdılar. Ölkənin hər yerində hərc-mərəclik başlanmış və bunun nəticəsində vergi yığan dövlət məmurları özbaşınalığa yol verərək, əhalidən qanunsuz vergilər almaqla zülm və istismarı genişləndirirdilər. Ölkədə baş verən bu feodal dağınıqları təsərrüfat pozğunluğuna, ticarətin zəifləməsinə, sənətkarlığın tənəzzülünə və beləliklə də, ölkənin iqtisadi geriliyinə və məhsuldar qüvvələrin zəifləməsinə qəti surətdə təsir edirdi.

Şirvanşahlar dövlətində II Şeyx İbrahim (Şeyxşah 1502-1524) hakimiyyətə gəldikdən sonra Səfəvilərə vergi verməkdən imtina etmişdi. Şirvanşah II İbrahim Osmanlı sultanları ilə də məktublaşmışdı. Məktublaşma prosesi ona görə ola bilər ki, II Şeyx İbrahim Səfəvi dövlətinə tabe olmaq istəmədiyi üçün onlara qarşı mübarizə aparmaqdan ötrü Osmanlı sultanları ilə münasibətə girmək istəmişdir (4, 130).

Səfəvi şahı İsmayıl Şirvanda olan feodal dağınıqlığına son qoymaq məqsədi ilə 1509-cı ildə (hicri 915-ci il) qışın ortalarında Cavaddan keçərək Şirvan üzərinə hərəkət etdi. II Şeyx İbrahim isə Biyqurd qalasına çəkilərək möhkəmləndi. Şah İsmayıl Şamaxının alınmasını bəzi əmirlərə tapşıraraq, özü Bakını almağa getdi. Bakı qalasının qalabəyi qalanı döyüşsüz ona təslim etdi. Sonra şah İsmayıl Şabranı da həmin qayda üzrə aldı. Lakin Dərbənd qalasının qalabəyiləri Yar Əhməd ağa və Məhəmməd bəy qalanın möhkəmliyinə arxalanaraq onu müdafiəyə başladılar.

Tarixçilərin verdiyi məlumata görə, qalanın müdafiəçiləri 5 gün ərzində 12 lağım ataraq qalanın bürclərini deşik-deşik etdilər. Vəziyyəti belə görən müdafiəçilər başda Yar Əhməd bəy olmaqla təslim oldular. Şah İsmayıl Dərbənd qalasının idarəsini, Mənsurbəyə, Şirvanı isə Lələbəyə tapşıraraq qışı Qarabağda qışladıqdan sonra Təbrizə qayıtdı.

Mənbələrdən aydın olduğu kimi, şah İsmayılın bu səfərindən sonra Şirvanşah II İbrahim Şah İsmayıla hədiyyələr göndərərək tabeliyini bildirdi. Lakin bundan sonra da o, tamamilə tabe olmayaraq vergi verməkdən boyun qaçırtmışdı. O, ancaq 1521-ci ildə (hicri 927-ci il) şəxsən şah İsmayılın yanına getməklə ona tabe oldu (4, 131).

Qeyd etmək lazımdır ki, Şirvanşah II İbrahim Səfəvi dövlətinin vassalığını qəbul etsə də, Şirvanın daxili işlərini müstəqil idarə edirdi. O, öz adına pul zərb etmiş və pulun üzərində özündən qabaqkı Şirvanşahlar kimi "sultanülə"zəm ləqəbi daşımışdır.

Əlbəttə, bu zaman Şirvan öz əvvəki beynəlxalq rolunu saxlaya bilməmişdi. Şirvanşahlar dövləti iqtisadi və siyasi cəhətdən getdikcə zəifləməkdə idi. Bu

zəiflik II İbrahimin oğlu II Xəlilullahın (Sultan Xəlilin) vaxtında daha da artıq özünü göstərdi. 1524-cü ildə atası II İbrahimin yerinə keçən II Xəlilullah Səfəvi hökmdarı Təhmasibin vassalığını qəbul etmişdi. Onun dövründə ölkə iqtisadi cəhətdən geriləməyə başladı. Bəzi tarixçilərin yazdığına görə, II Xəlilullah ali nəcabətli ata-babasının əksinə olaraq vaxtında şərab içmək, ova çıxmaq və s. ilə keçirdiyi üçün dövlət işlərinə fikir vermirdi. Ölkəni idarə edən əmrlər öz bildikləri kimi hərəkət edərək istədikləri kimi əhalini istismar edirdilər.

Şirvan əmirləri 1536-cı ildə, II Xəlilullah öldükdən sonra, daha da özbaşınalığa başlayaraq iki hissəyə ayrıldılar. Bunların bir hissəsi Şirvanı tamamilə Səfəvi dövlətinə birləşdirmək tərəfdarı olan II Xəlilullahın arvadı və şah Təhmasibin bacısı olan Pərixan xanımın ətrafına toplaşaraq Səfəvi dövlətindən kömək istədilər. Digərləri isə Dərbəndi sülaləsinin hökmranlığını bərpa etməyə çalışaraq Sultan Xəlilin Şamaxıda olan qardaşı oğlu 15 yaşlı Şahruxu gətirib Şirvan taxtına əyləşdirdilər.

1536-cı ildə Şirvanşahlar taxtına əyləşən Şahrux Mirzə kiçik olduğundan başda Hüseyn bəy vəkil olmaqla, Şirvan əmirləri ölkəni özləri idarə edirdilər.

Əmirlərin özbaşınalığı, aralarında olan hərc-mərəclik və bunun nəticəsində baş verən qanunsuzluq əhalini var-yoxdan çıxartmışdı. Əhali arasında bu qanunsuzluğa, təsərrüfat pozğunluğuna və əmirlər arasında gedən çəkişməyə qarşı sinifi mübarizə hissləri günü-gündən şiddətlənməkdə idi.

Bu vaxt Şirvanda Qələndərbəy adlı bir nəfər özünü II şeyx İbrahimin (Şeyx-şahın) özbəklərlə müharibəsində öldürülmüş oğlu Sultan Məhəmməd olduğunu elan edərək, ətrafına qüvvə toplayıb, Səlyanda möhkəmləndikdən sonra Şamaxını aldı. Şahrux Mirzə, Şirvan əmirlərinin özbaşınalığı və aralarında olan münaqişə nəticəsində, Qələndərə qarşı hərbi qüvvəsi az olduğundan, onun adından ölkəni idarə edən əmirlərlə birlikdə, Biyğurd qalasına çəkildi.

Qələndər Şamaxını mühasirəsiz aldı, lakin uzun müddət orada qala bilmədi. Hürşah Qələndərin Şirvanı tərk etməsi haqqında belə yazmışdır: Qələndər qeyri-təbii hərəkət etməyə başlayaraq qanunsuz işlərə əl atdı. Ona görə də, əhali onun əxlaqına nifrət edərək, tabe olmaqdan boyun qaçırtdılar. Hələ onun Şamaxını almasından 40 gün keçməmişdi ki, Şahrux sultanı böyük qoşunla Şamaxıya gətirib Şirvanşahlar taxtına oturtdular. Qələndər isə canının qorxusundan Mahmudabad tərəfə, sonra Salyana qaçdı. Şahrux ikinci dəfə Şirvan taxtına əyləşərək onun dalınca qoşun göndərdi. Şahruxun qoşunları Qələndəri izləyərək tutub öldürdülər.

Bu barədə mənbələrdə olan məlumatlar ziddiyyət təşkil edir. Bəzi tarixçilər Qələndərin zalımlığı nəticəsində əhalinin Şirvanşaha kömək etdiyini yazdığı halda, digərləri xalqa zülm etdiyini qeyd edirdilər (3, 145).

Ümumiyyətlə, Qələndərin rəhbərliyi altında baş vermiş hərəkatın nə kimi xarakter daşıdığı və bu hərəkatda iştirak edən qüvvələrin hansı təbəqəyə aid olduğu haqqında qəti fikir yürütmək bir qədər çətindir. Çünki orta əsr tarixçiləri bu üsyanda hansı təbəqənin iştirak etdiyini qəti olaraq yazmırlar. Bəziləri Qələndərin ətrafına toplanan qüvvələri "Böyük qoşun", "camaat" deyə qeyd

edirlər. Hürşah isə həmin qüvvələri "ölkənin qoşunlarının etibarından düşmüş bir çox hissəsi" deyə yazır.

Tarixçi Petruşevski İsgəndər bəy Münşinin üsyançılara nifrətlə yanaşdığına və hərəkata başçılıq edən adamın dərviş olmasına əsaslanaraq həmin üsyanı kəndli üsyanı kimi xarakterizə edir.

İsgəndər bəy Münşinin bu üsyançılara nifrətlə yanaşmasını əsas götürmək olmaz. Çünki o, bir sıra məsələlərdə obyektiv olmasına baxmayaraq, Şah Abbasın saray tarixçisi olduğu üçün Səfəvilərə qarşı çıxış edən hər bir qüvvəni nifrətlə qələmə almışdır (3, 148).

Bu zaman Şirvanda siyasi-ictimai vəziyyət olduqca kəskin idi. Baş vermiş feodal dağınıqlığı nəticəsində əhali var-yoxdan çıxırdı. Feodal dağınıqlığı ölkənin iqtisadi geriliyinə və məhsuldar qüvvələrin zəifləməsinə səbəb olurdu. Bəzən əhali mövcud hakimiyyətdən narazı olduğu üçün onun əleyhinə gedən hər hansı hərəkat olursa-olsun qoşulurdu. Nəticədə isə geniş xalq kütlələrinin narazılığından və qüvvəsindən istifadə edən feodal əyanlar hakimiyyəti ələ alırdı və hakimiyyətə gələn kimi dərhal xalqa zülm etməyə başlayırdılar. Bunu görən əhali isə onlardan üz döndərərək hakimiyyət uğrunda mübarizə aparan digər qüvvələrin ardınca getməli olurdu.

Ola bilər ki, Qələndərbəy Şirvanda olan feodal dağınıqlığından və daxili münaqişələrdən, Şirvan əyanları arasında olan hərc-mərclikdən və bunun nəticəsində baş vermiş xalq kütlələrinin narazılığından istifadə edərək, Şirvanda hakimiyyəti ələ almaq istəmişdir. Şirvanşah II Sultan Xəlilin arvadı Pərixan xanım onun hakimiyyətə yiyələnməsinin tərəfdarı olduğu üçün o, öldürüldükdən sonra Təbrizə gedərək Şirvanın tamamilə Səfəvi dövlətinə birləşdirilməsi vaxtının gəlib çatdığını qardaşı Təhmasibə bildirmişdir (4, 136).

Mənbələrin verdiyi məlumata görə isə ikinci dəfə Şamaxıda olan Şahrux və Şirvan əmirləri xalqa olmazın zülm etməyə başladılar. Bunların zülmündən təngə gəlmiş xalq şah Təhmasibdən kömək istədi. Şah Təhmasib Şirvanı almaqdan ötrü Alxas Mirzə, Mantaşa Sultan Ustaclı, Sevindik bəy Qorçubaşı, Məhəmməd bəy, Qorçubaşı Padar və sairənin rəhbərliyi ilə 20 mindən artıq qoşun göndərdi.

Şirvanşah Şahrux və Şirvan əyanları Biyğurd qalasına çəkilərək müdafiəyə başladılar. Alxas Mirzə Sorxab, Qəbələ qalalarını aldısa da Biyğurd qalasını ala bilmədi. Biyğurd qalasının alınması haqqında tarixçi Hürşah və İsgəndər bəy Münşi məlumat verir. Hurşahın yazdığına görə Alxas Mirzə Biyğurd qalasını 9 ay, İsgəndər bəy Münşinin yazdığına görə isə 4 ay mühasirədə saxlamışdır.

Nəhayət, Şah Təhmasib özü gəldikdən sonra qalanın müdafiəçiləri başda vəkil Hüseyn və Şahrux olmaqla qaladan çıxaraq tabe oldular. Şah Təhmasib sonra Gülüstan qalasını da alaraq Şirvanın idarəsini qardaşı Alxas Mirzəyə tapşırıb Təbrizə qayıtdı.

Beləliklə, 675 ilə yaxın tarixçilik ənənəsinə malik olan Şirvanşahlar dövlətinin varlığına son qoyuldu.

## ƏDƏBİYYAT

1. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007, 342 s.
2. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı: Avrasiya press. 2006, 414 s.
3. İsgəndər bəy Münşi. "Tarixi-alamarayi-Abbasi" tərcüməsi, farsacadan tərcümə edən Oktay Əfəndiyev və Namik Musalı. Bakı: Elm, 2009, 656 s.
4. Nemətova M.X. Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair. Bakı: Elm, 1959, 150 s.
5. Azərbaycan tarixi üzrə qaynaqlar. Süleyman Əliyarlının redaktəsilə. Bakı: Azərbaycan Dövlət Univeristeti, 1989, 274 s.
6. Azərbaycan tarixi 7 clilddə. III c. Bakı: Elm, 2007, 590 s.
7. Əliyarlı S. Uzaq keçmişdən 1870-ci ilə qədər Azərbaycan tarixi. Bakı: Azərbaycan, 1996. 868 s.
8. Bünyadov Z. Azərbaycan tarixi. Bakı: Azərbaycan, 1996, 654 s.

## ШИРВАН В 20-30-х ГОДАХ XVI ВЕКА

**БАБА БАХРУЗ ВИДАДИ**

## РЕЗЮМЕ

Эта статья посвящена истории государства Ширваншахов в 20-30 гг. XVI в. Автор в этой статье дает сведения об отношениях Ширваншахского государства с соседними странами. На основе фактических материалов автор в этой статье показывает основные причины ослабления и краха Ширваншахского государства. Автор также уделяет особое внимание источниковедческим сведениям.

**Ключевые слова:** Сефеви, государство, шах, Ширван, Ширваншах

## SHIRVAN IN THE 20-30s OF THE XVI CENTURY

**BABA BAHRUZ VIDADY**

## SUMMARY

This article has been dedicated to the history of the Shirvanshah State in 20-30s of the XVI century. The author provides information about the relatious of Shirvanshah with neigbhouring countries. The article reflects the main reasons of the liquiadition of the Shirvanshakh State. The author has paid special attention to the issues noted in the sources.

**Key words**: Safavi, state, Shah, Shirvan, Shirvanshah